UOT 94(479.24)

# QƏRBİ AZƏRBAYCANIN YAŞAYIŞ MƏSKƏNLƏRİ VƏ EVLƏRİ (GÖYÇƏ MAHALININ MİSALINDA)

**X.A.AĞAYEVA**
*AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu*
*Agayeva_Khatira@mail.ru*

*Məqalədə min illərlə Qərbi Azərbaycanda yaşayan yerli əhalinin yaşayış evləri və məskənlərinin formaları, tikilmə üsulları, daxili interyeri, xarici görünüşü kimi mühüm və aktual məsələlər öz izahını tapmışdır. Araşdırma nəticəsində konkret olaraq Göyçə mahalında kəndlərin yaşayış yerləri haqqında mühüm nəticələr əldə edilmişdir.*

**Açar sözlər:** məskən, tikinti, evlərin görünüşü, yaşayış

Hər hansı bir xalqın mövcudluğunun ən bariz göstəricisi onun mədəniyyətidir. Hələ keçən əsrdə məhşur rus etnoqrafı Y.V.Bromley qeyd edirdi ki, «mədəniyyət-cəmiyyət və insanın özünün inkişafının tarixən müəyyən səviyyəsi olub, formaca milli, məzmunca beynəlmiləl və ümumbəşəri humanist, tarixi keçici, diskrutiv və sinkret xarakter daşıya, üstqurum hadisə kimi təzahür edir» (1, 205-208).

Mədəniyyətin tarixini, sosial-əxlaqi, hüquqi, fəlsəfi-didaktik mədəniyyətini açmağa çalışan müxtəlif elmi sahələrinin nümayəndələri (tarixçilər, etnoqraflar, mədəniyyətşünaslar, filosoflar, sosioloqlar, psixoloqlar, hüquqşünaslar, didaktiklər və başqaları) mədəniyyətin iki növünün - maddi və mənəvi mədəniyyətin olduğunu, bu bölgünün nisbi xarakter daşıdığını, onların dialektik vəhdətini sübut etməyə çalışırlar (2; 3,5).

Beləliklə, maddi və mənəvi dəyərlər ümummədəniyyəti tam olaraq sona yetirir.

«Dünya mədəniyyəti panteomunda özünün maddi və mənəvi dəyərləri ilə seçilən türk mədəniyyəti və onun tərkib hissəsi olan Azərbaycan mədəniyyəti məhz elə belə maddi təməl üzərində *** tapmış, uzun illərin əməli vərdişlərini empirik bilik və təcrübələri ilə zənginləşmiş, mədəni irsimizin mühüm sahələri olmuşdur. Buna görə də xalqımızın qədim və çoxçalarlı maddi mədəniyyətinin elmi əsaslarla ümumiləşdirilmiş şəkildə öyrənilməsi Azərbaycan etnoqrafiyası elmi qarşısında duran ən vacib və aktual problemlərdən biridir» (2,5).

Etnoqrafiya elmində maddi mədəniyyətin, yəni xalqların fiziki əməyinin nəticəsində əsasən təbii-coğrafi şəraitin, dövrün sosial-siyasi xarakteri və etnik xüsusiyyətlərinin, etnosların spesifik həyat tərzinin və təsərrüfat fəaliyyətinin istiqamətinin təsiri ilə yaranan sahələrindən biri də yaşayış məskənləri ilə

evləridir. Qeyd etmək lazımdır ki, hər hansı xalqın yaşayış məskənlərinin və evlərinin araşdırılan dövrdə formalarının öyrənilməsi həm də etnosların istehsal fəaliyyətinin göstəricisi olmaqla, bu və ya digər etnosun sosial-iqtisadi, siyasi-mədəni və ideoloji tarixini, eyni zamanda etnogenezinin bəzi məsələlərini öyrənmək üçün mühüm mənbə rolunu oynayır.

Azərbaycanın əzəli və köklü torpaqları sayılan Göyçə mahalının etnoqrafik problemləri ümumazərbaycan və ümumtürk aspektindən seçilməyən, bununla belə müəyyən özəllikləri olan bir ərazi idi. Çox təəssüf edirik ki, biz bu fikri XXI əsrin əvvəllərində keçmiş zamanda işlədirik. Belə ki, mənfur qonşularımızm 100 illik apardığı siyasəti nəticəsində xalqımız bu torpaqlardan məhrum olunmuşdur. Lakin minillərlə orada yaşayan, bu gün dünyaya səpələnən «qaçqın» göyçəlilər hər vəchlə saxlanmağa çalışırlar.

Qərbi Azərbaycanın maddi-mədəniyyətinin əsas hissələrindən sayılan yaşayış yerləri və evləri xüsusi olaraq ayrıca bir tədqiqat işi kimi öyrənilməmişdir. Buna baxmayarq Azərbaycan etnoqrafıya elmində ölkəmizin ərazisində zaman-zaman olmuş Avropa və Şərq ölkələrinin coğrafiyaşünas səyyahlarının əsərləri və yol qeydlərində müəyyən məlumatlar da vardır. Hələ erkən orta əsrlərdən Şərq-Qərb ticarət dəhlizinin qovuşuğunda yerləşən Azərbaycan tranzit vasitəçi rolunda iştirak etmişdir. Digər tərəfdən İpək yolunun məhz Azərbaycan vasitəsilə həyata keçirildiyindən, burada olan səyyahlar öz əsərlərində maddi-mədəniyyət məsələlərinə müəyyən qədər toxunmuşlar. Qərbi Azərbaycan ərazisində yaşayış evləri haqqmda H.A.Karaulovun, M.A.Polivktovun, V.Rubrukun, Azərbaycan alimlərindən O.U.Osmanovun, Y. Mahmudovun, C.X.Rzayeva və başqalarının əsərlərində müəyyən məlumatlar vardır. XIX əsrdə Azərbaycanın Rsiya tərəfindən işğalı ilə əlaqədar olaraq burada iqtisadi məsələlərin həlli üçün, xüsusilə vergilərlə bağlı əhalinin siyahıya alınması ilə əlaqədar olaraq ayrı-ayrı əsərlər yazılmışdır. Əslində rus müəlliflərinin əsərləri Azərbaycan xalqının etnoqrafiyasını öyrənmək üçün deyil, böyük rus şovinizmi siyasətini hərtərəfli həyata keçirmək üçün yazılmışdı. Bütün bunlara baxmayaraq Azərbaycanın ayrı-ayrı bölgələrinin əhalisinin təsərrüfat və ailə məişətinə, maddi və mənəvi mədəniyyətinin öyrənilməsi baxımından xüsusi olaraq İ.İ.Şopenin, P.Q.Butkovun, İ.N.Berezinin əsərlərində, o cümlədən 7 cildlik «Zaqafqaziya ölkəsi dövlət kəndlilərinin iqtisadi məişətinin öyrənilməsinə dair materiallar məcmuəsi»ndə, 1887-1888-ci illərdə nəşr olunmuş 5 cilddən ibarət «Zaqafqaziya ölkəsi dövlət kəndlilərinin iqtisadi məişətinin öyrənilməsi üzrə materiallar toplusunda», «Qafqaz vilayəti və tayfalarının təsvirinə dair materiallar məcmuəsi»ndə, «Qafqaz arxası rus vilayətlərinin icmalında», «Qafqaz haqqında məlumat məcmuəsi»ndə və b. nəşrlərdə maddi mədəniyyətimizə aid toplanan faktik materiallar daha dəqiqliyi ilə seçilir (4).

Göyçə mahalının əhalisinin evlərini, yaşayış məskənlərini, bütün incəlikləri ilə araşdırmazdan əvvəl qeyd etmək lazımdır ki, oradakı 32 kəndin bir-biri ilə nə qədər oxşarlığı var idisə, o qədər də fərqli yaşam tərzləri var idi. Bunun da əsas səbəbi hər kənddə bir neçə nəslin əsrlərlə yerlərini dəyişmədən yaşamaları, patriarxal ailə münasibətlərini, deməli evtikmə mədəniyyətini yaddaş-

larında qoruyub saxlamaqları ilə bağlı idi. Zaman etibarilə araşdırdığımız dövr çox ziddiyyətli, daxili çəkişmələrlə bol olan, həm də I Dünya müharibəsinin baş verdiyi vaxt olduğunu nəzərə almaq lazımdır. 1905-1907-ci illərdə erməni-müsəlman münaqişəsinin qanlı ocaqlarından biri də Göyçə mahalı olmuşdur.

Beləliklə, bir çox tarixi obyektiv və subyektiv səbəblərdən bu günkü göyçəlilərin III nəsli sayılan dədə-babalarının yurdu o qədər də təmtəraqlı, varlı, bəzəkli evlərdən ibarət deyildi. Əsasən 1 və 2 otaqdan ibarət yerli tikinti materiallarından − palçıqla samanın qarışığından alınan bişməmiş iri möhrə tipli kərpiçlərdən və qırmızı daşlardan tikilirdi. Qırmızı daşlarla çay daşlarının sinxron istifadəsindən tikilən evlərə bu gün də Azərbaycanın qərb rayonlarının dağ kəndlərində rast gəlmək olar. Əsasən qadınların primitiv üsulla hazırladıqları kərpiclərlə tikilən dördkünc damı ağac və samanın, palçığın qarışığı ilə örtülmüş evləri çoxluq təşkil edirdi. Bu cür evlər o qədər də böyük olmayaraq öz qapılarına baxan kiçik pəncərəli, tüstü çıxan bacalı və taxtadan, adi qapıdan ibarət olurdu. Döşəmə çox nadir hallarda ağac məmulatı ilə hamar olurdu. Əsasən sadə üsulla hamarlayıb, üstünü şirələyib, keçə, palazla örtürdülər. Bütün ailə bir otaqda yerləşdiyi üçün o qədər də qışda soyuq olmur, yayda isti olmurdu. İşıq əsasən pəncərədən evə düşürdü. Belə kasıb insanların yaşadığı evləri intiryerində ən yaxşı halda üstündə «yük» (yəni bir neçə dəst yorğan, döşək, yastıq) olan sandıq, divarda cehiz kimi gətirilən tikmələr, yerdə isti və sərini qorumaq üçün lazım olan sayda misdən hazırlanmış metal qablar − səhəng, tabaq, boşqab, tava, sərnic və s., ayrıca mərfəsə bənzər bağlamada dəyişək paltar saxlanılırdı. Ailələr yeməyi ilin bütün fəsillərində, əsasən evin ortasında yerə salınan süfrənin kənarında, içi saman, yunla doldurulan döşəkçələrin üstündə oturaraq yeyirdilər. Qonaq gəldikdə süfrənin ətrafında əsasən kişilər otarardılar, bu zaman hörmət mənasında rahat oturmaq üçün kiçik dairəvi mütəkkələrdən də istifadə olunurdu. Bu cür evlərin işıqlandırılması «yay ləmpəsi» deyilən xüsusi formalı qabda həyata keçirilirdi. Otağın qızdırılması üçün evin bir küncündə ocaq qalanırdı, həmin küncdən bayıra baca da düzəldilirdi. İstilər düşdükdə o bacanı bağlayırdılar ki, eşikdən qurd-quş içəri girməsin. İsti vaxtlarda evə hava ancaq əsasən bütün günü açıq qoyulan qapıdan daxil olurdu. Bununla da, ilin bütün fəsillərində evlərin havalandırılması müəyyən qaydalarla yerinə yetirilirdi.

İsti aylarda ayaqqabını çıxarmaq üçün bir qədər hamarlandırılmış yerə ayaqaltı deyilən yerdən istifadə olunurdu. Əsasən sentyabrdan may ayına qədər havaları soyuq keçən Göyçədə əhali əsasən ayaqqabısını içəridə qapının arxa hissəsində ayaqaltı deyilən yerdə çıxarırdı. Bu cür evlər demək olar ki, hər isti yay aylarında, yağışlardan öncə sahibləri tərəfindən təmir edilirdi, yəni divarlara kirəc, döşəmənin yerinə şirə çəkilirdi. İl ərzində Qurban bayramında, Novruz bayramında evi «dibdən-bucaqdan təmizləyən» qadınlar bu işə xüsusi fikir verirdilər. Evin bütün əmlakını mütləq «havaya tökməli olan» qadınlar evin sökülüb-tökülən yerlərini palçıqla düzəldir, gül əkir və s. işləri yerinə yetirirdilər. Hər bir evin qurumuş ağacların qalın budaqlarından, kəndirlə bir-birinə bağlanmış çəpəri vardır. Həyətin içində nisbətən imkanı olan insanların

«mal damı − tövləsi» əl damı da olurdu. Ev heyvanlarını qış uzunu damda saxlayan əhali onları suvarmaq üçün iri gövdəli ağacların içini ovaraq xüsusi formalı içərisinə su tökmək üçün yer hazırlayırdılar. Tövlənin bir küncündə mütləq iri daş duz qoyulardı ki, heyvanlar duza olan ehtiyaclarını o daşları yalamaqla ödəyirdilər. Əl damı deyilən başqa bir təsərrüfat xarakterli tikilidə əsasən ərzaq məhsulları saxlanılırdı. Azərbaycanın digər yerlərində o qədər də rast gəlinməyən belə əl damlarının quruluşunda quyuları qeyd etmək lazımdır. Belə ki, əsasən XVIII əsrdən Azərbaycan əhalisi kartof bitkisi ilə tanış olmuşdur. Dəmyə əkinçilik üçün çox münbit torpaqları olan Göyçə ərazisində bu tərəvəz çox tezliklə əhali arasında yayılmağa başlamışdı. Nəticə etibarilə XIX əsrin sonlarından başlayaraq texniki bitkilər sırasına daxil olan kartof bazarlara satış üçün yerli əhali tərəfindən istehsal olunmağa başlamışdı. XX əsrin sonlarına qədər Qafqazın bir çox yerlərində əhali "Göyçə kartofuna xüsusi yer verirdi. Bunun əsas səbəbi də yetişdirilən kartofun 3-6 m dərinliyində qazılan, daşla nərdivanlar (ayaq qoymaq üçün) üçün yeri olan xüsusilə quyularda optimal temperaturda saxlamalı idi. Belə ki, yerli əhali həm öz tələbatını, həm də bazar üçün becərdikləri, xüsusi *** olan kartofu bu cür quyularda yerləşdirir. Hər dəfə üstündən götürdükcə aşağı düşmək üçün hörgüdə qoyulan daş çıxıntılardan nərdivan kimi istifadə edərək, lap aşağı həddə qədər düşə bilirdilər. Belə quyular əl damında orta hissəsində günəş və su düşməyən yerdə tikilirdi. "Əl damlarının" digər bir vacib yeri təndir və sacda lavaş (yuxa) bişirmək üçün hazırlanan küllənmiş, qıraqların bir neçə ədəd daş qoyulan ocaq yeri idi. Əsasən bir əl damında hər iki konstruksiya yəni, kartof quyusu və təndir olmurdu. Bunun üçün əl damının ölçüləri ən azı 5-6 m olmalıydı ki, bir-birinə mane olmasınlar. Ya da ki, ayrıca təndir damı tikilirdi. Bu cür tikilidə təndirlər yeraltı formada olurdu. İçəridə divarda bir neçə yerdə mismardan çörək bişirmədə lazım olan «dördayaq», oxlov, masa teşti və digər ləvazimatlar asılı olurdu ki, çox yer tutmasınlar. Təndir olan yerin yaxınlığında sac üçün həmçinin bəzi mərasim yeməkləri bişirmək üçün ocaq yeri hazırlanırdı. Göyçə əhalisi son deportasiyaya qədər bu cür təsərrüfat tikililərinə xüsusi fikir verirdilər. Əhali daha çox arpa, buğda unundan sacda lavaş (yuxa) hazırlayırdılar. Təndirdə əsasən nisbətən qalın xəmirli çörəklər − xammal hazırlanırdı. Araşdırdığımız illər, yəni XIX əsrin sonu − XX əsrin əvvəllərində müharibələr, çaxnaşmalar, quraqlıq illəri olduğu üçün, sorğu apardığımız informatorların məlumatlarına görə uzun aylar heç belə təndirlərdən tüstü çıxmazdı.

Nisbətən varlı ailələrin, din xadimlərinin yaşadıqları təsvir etdiyimiz evlərdən fərqlənirdi. Belə ki, əsasən yaxın İran, Türkiyə və Rusiya ilə ticarət işləri ilə məşğul olan Göyçənin varlı əhalisi evlərini yeni dəbdə tikirdilər. O cümlədən, Rusiyadan su yolu ilə Bakıya gətirilən ağaclardan qapı, pəncərə, Avropadan Rusiyaya, oradan da Azərbaycana gətirilən dəmirdən dam örtüklərindən, döşəmə üçün yerli ağac məmulatlarından və s. istifadə edərək, «aynabəndli», iri 5-10 otaqlı evlər tikdirirdilər. Bu cür evlərin bənnaları da həmişə azərbaycanlıların qapısında bir qarın çörəyə möhtac ermənilər olardı. Hər yeniliyi bütün xalqlardan tez qavramaq üçün fitri qabiliyyəti olan ermənilər

köçəri millət olaraq, harada nə görürdülərsə, gəlib azərbaycanlıların varlılarının evlərində tətbiq edirdilər.

Bəzən elin varlı nəsillərinin nümayəndələri xüsusi belə erməni hamballara ailələri ilə kəndin ucqar yerində məskunlaşmağa icazə verirdilər ki, hər gün həyətlərində gedən tikinti işlərini ermənilər gecikdirməsinlər.

Varlı ailələrinin evlərinin interyeri daha zəngin və rəngarəng olurdu. Rusiyanın, sonralar sovetlərin apardıqları ateizmin Göyçə mahalında heç bir təzahürü olmamışdı. Belə ki, evin yuxarı başında, xüsusi hazırlanmış taxçada, mütləq Məşhəddən, Kərbəladan, Məkkədən gətirilmiş, nəfis bəzəkli "Qurani-Kərim" kitabı xüsusi bahalı parçaya bükülərək xüsusi birləmədə saxlanılırdı. Divarlar boyu, müəyyən hündürlükdə düzəldilən digər taxçada, hər evin tikilməsində birinci hədiyyə sayılan kerosin lampası, gündəlik məişətdə işlədilməyən bahalı qablar − camlar, kasalar, qəhvədanlar düzülürdü. Otaqların ən böyüyündə, qonaq otağında döşəmələr, divarlar gözəlliyi ilə seçilən Göyçə xalçaları ilə bəzədilirdi. Burada da, informatorların məlumatlarına görə qonaqlar yerdə süfrə arxasında otururdular.

Bəzi, nisbətən daha varlı insanların evində dəbdə olan «Avropasayağı» mebellə, o cümlədən stol, stulu olan otaq düzəldilirdi ki, orada çox hörmətli qonaqları qəbul edirdilər. Yataq otaqlarında da əsasən, sandıqlar, məfrəslərdə ipək yorğan-döşəklər, mütəkkələr, yastıqlar saxlanılırdı. Hər yataq otağında əsasən İtaliyadan gətirilən iri, gözəl güzgülər olardı. Hər güzgünün hər iki tərəfində müəyyən əşyalar saxlanılırdı. Pəncərələr əsasən həyətə açılan aynabənddə olurdu. Pərdə kimi daha çox yerli ustaların məhsullarından − kətandan tikilimə parçalardan istifadə olunurdu.

Beləliklə, bütün əlamətləri ilə Göyçənin yaşayış məskənləri və evləri əsasən Azərbaycanın qərb bölgələrindəki − Qazax, Gəncə, Şəmkir, Gədəbəydəki yaşayış məskənləri ilə analogiyalar təşkil edir.

## ƏDƏBİYYAT


1. Бромлей Ю.В. Этнос и этнография М.: Наука, 1973, 257 с.
2. Vəliyev T.İ. XIX-XX əsrin əvvəllərində Azərbaycanın maddi-mədəniyyəti. (tarixi-etnoqrafik tədqiqat) – T.e.d. alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı: Azərnəşir, 2007, s.5.
3. Əliyev Q.C., Tağıyev Ə.M., Bayramov M.İ. Mədəniyyatşünaslığın əsasları. Bakı: Elm, 1999, 154 s.
4. Караулов Н.А. Сведения арабских писателей о Кавказе, Армении и Азербайджане. – СМОМПК, вып. 29; Тифлис, 1901; вып.30. Тифлис, 1902
5. Поливктов М.А. Европейские путешественники XIII-XVIII вв. по Кавказу. Тифлис, 1935.
6. Osmanov O.İ. Məşhur səyyahlar və coğrafiyaşünaslar. Bakı: Elm, 1970, 321 s.
7. Vəlixanlı N. IX-XII əsr ərəb coğrafiyaşünasları Azərbaycan haqqında. Bakı: Elm, 1974, 217 s.
8. Mahmudov Y. Səyyahlar, kəşflər. Azərbaycan. Bakı: Yazıçı, 1985, 356 s.
9. Рзаева С.Х. Этнографические сведения об азербайджанцах в трудах западноевропейских путешественников XIII-XVIII вв. Баку: Азернешр, 2005, 224 s.
10. Материалы для изучения экономического быта государственных крестьян Закавказского края. Т. I-V Тифлис, 1885-1886 гг.
11. Свод материалов получению экономического быта государственных крестьян Закавказского края. Т. I-V Тифлис, 1887-1888 гг.

12. Сборник материалов для описания местностей и племен Кавказа. Вып. I-X-IV Тифлис, 1881-1915.
13. Обозрение российских владений за Кавказом в статистическом, этнографическом, пиелографическом и финансовом отношениях. Чч. I-IV Спб.183 в.
14. Q.Əliqızı. Yaddaşlarda qalan ağrı. – «Azərbaycan qəzeti», 1999, 14 iyun.

**İnformatorlar**

1. İsrafilova Sona Rəcəb qızı – 1934-cü il, Bakı, Masazır qəsəbəsi.
2. Məmmədov Əfqan Kamandar oğlu – 1930-cu il, Xırdalan şəhəri, Quşçuluq massivi, ev 114.
3. Xudayarova Gülbəsti İbrahim qızı – 1928-ci il. Bakı, Keşlə qəsəbəsi, A.Əhmədov, 128.

## ПОСЕЛЕНИЯ И ДОМА ЗАПАДНОГО АЗЕРБАЙДЖАНА (НА ПРИМЕРЕ ГЕЙЧИНСКОГО МАГАЛА)

**Х.А.АГАЕВА**

### РЕЗЮМЕ

В статье рассмотрены основные типы жилищ, формы поселения местного, автохтонного населения Западного Азербайджана (Совр. Армения).

Автор впервые исследует историографические аспекты изучения данного вопроса. Все типы, формы жилищ, домов тюрков-азербайджанцев, проживающих тысячилетиями на указанной территории, знали самые мельчайшие тонкости постройки, четко разделяя внутренние границы между жилыми и хозяйственными частями, умело использовали жилые местности, ее основные климатические и другие природные особенности и т.д.

Тем самым, на основе этнографического анализа автор выявляет своеобразные и общеазербайджанские элементы внутри материальной культуры между различными территориями Южного Кавказа.

**Ключевые слова:** местность, стройка, вид домов, жилище

## SETTLEMENTS AND HOUSES IN WESTERN AZERBAIJAN (ON THE EXAMPLE OF GOYCHA MAHAL (DISTRICT))

**Kh.A.AGHAYEVA**

### SUMMARY

The article describes the main types of dwellings, forms of the settlement of local, indigenous population of Western Azerbaijan (modern Armenia).

The author is the first to examine the historiographic aspects of the study of the aforementioned issue. All types, forms of dwellings, houses of the Turkish-Azerbaijanis residing on this territory for thousands of years knew the smallest details of construction, the distinction between the internal limits of the residential and economic parts, skillfully used residential areas, as well as their main climatic and other natural features, etc.

Thus, based on ethnographic analysis, the author reveals distinctive and common Azerbaijani elements within the material culture among the different areas of the South Caucasus.

**Key words:** living, place, the apperance of houses, building